# Qəbələdə Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilib

26 fevral 2024-cü il tarixdə Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, rayonumuzda müvəqqəti məskunlaşmış Xocalı sakinləri və ictimaiyyətinin nümayəndələrinin iştirak ilə tədbir keçirilib. Qəbələ Mədəniyyət Mərkəzində keçirilən tədbirdə öncə Xocalı soyqırımına həsr olunmuş rəsm sərgisinə baxış keçirilib. Konfrans zalında davam edən tədbirdə Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə siyasi-hüquqi qiymət verildiyini, erməni vəhşilərinin tarix boyu xalqımıza qarşı törətdikləri terrorizmi heç vaxt unutmayacağını diqqətə çatdırmış, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun mənfur düşməni darmadağın edərək işğal altında qalan torpaqlarımızın, o cümlədən Xocalının azad edilərək, düşməndən qisasının alındığını bildirmişdir. Çıxış edən rayon icra hakimiyyətinin başçısının müavini Ətayə Osmanova ölkə başçısının rəhbərliyi ilə azad olunmuş torpaqlarda, eləcə də qan donduran faciənin yaşandığı Xocalıda bu gün abadlıq – quruculuq işlərinin aparıldığını, yeni sənaye və turizm obyektlərinin istifadəyə verildiyini, yurd-yuvasından didərgin düşmüş insanlarımızın öz doğma torpaqlarına qayıtdıqlarını qeyd etmişdir. Xocalı sakinləri isə öz çıxışlarında erməni silahlıları tərəfindən törədilən Xocalı faciəsində dinc xalqa qarşı edilən misli görünməmiş vəhşiliklərdən bəhs etmiş, Xocalı faciəsinin son 2 ildə tam başqa əhval-ruhiyyə ilə anıldığını, səbrsizliklə öz doğma yurd-yuvalarına köçəcəkləri günü gözlədiklərini və bütün bunlara görə ölkə rəhbərinə öz təşəkkürlərini bildirmişlər. Məktəb şagirdlərinin ifasında Xocalıya həsr olunmuş şeir kompozisiyası tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır. Sonda xatirə şəkli çəkdirilmişdir.









# Əsrin faciəsi - Xocalı

Bu gün biz XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının 33-cü ildönümünü qeyd edirik. Azərbaycan tarixinə qara hərflərlə yazılmış bu faciə üzərindən uzun illər keçsə də heç vaxt yaddan çıxmayacaq. Ancaq çox sevindirici haldır ki, artıq həmin torpaqlarımız düşmən işğalından azad edilib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sarsılmaz Azərbaycan Ordusu tərəfindən azad edilmiş torpaqlarda, həmçinin Xocalıda bu gün abadlıq-quruculuq işləri aparılır. İnanırıq ki, çox qısa vaxtda elindən-obasından, isti yurd-yuvasından didərgin düşən bütün soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar.

Ümummilli liderimiz Heydər Əliyev Xocalı soyqırımını belə qiymətləndirmişdir: “Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Xocalı faciəsi Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır, vəhşiliyin görünməmiş təzahürüdür”.

Ulu öndərin təşəbbüsü ilə 1994-ci il fevralın 24-də Milli Məclis “Xocalı Soyqırımı günü haqqında” qərar qəbul etdi. Bununla da 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş soyqırım faciəsi öz tarixi qiymətini almış oldu.

Ümummilli liderin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir. O vaxtdan başlayaraq hər il Xocalı faciəsi xalqımız tərəfindən böyük ehtiramla yad edilir.

Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı faciə ilə müqayisə oluna bilər. Bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı Soyqırımının beynəlxalq aləmdə tanınması istiqamətində Dövlətimiz tərəfindən aparılan işlərin nəticəsidir ki, soyqırım hadisəsi artıq bir çox ölkələrdə qəbul olunan parlament aktlarında tanınmış və xatırlanmışdır. Bu vaxtadək Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları, həmçinin ABŞ-ın 20-dən çox ştatı tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir.



20 noyabr 2012-ci il tarixində Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qətnamə qəbul edilmiş, 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransının 12-ci sessiyasında üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağrılmışdır.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu strategiyasını çox böyük uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qısa zaman ərzində ölkəmizdə müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan Azərbaycan Ordusu yaradıldı. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən Müharibəsində isə Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşən ordu-xalq birliyi ordumuzun qüdrətini bütün dünyaya bəyan etdi. Düşmənin uzun illər ərzində güclü istehkamlar qurduğu torpaqlarımız qısa müddətdə azad edildi. Uzun müddət siyasi danışıqlar yolu ilə həll edilməsinə çalışılan məsələnin cavabı üçün ordumuza cəmi 44 gün kifayət etdi. Müxtəlif dairələrdən müntəzəm gələn təzyiq və təhdidlərə baxmayaraq Azərbaycan öz haqq savaşında zəfər çaldı. Həmçinin mənfur qonşularımızın 2022-ci ilin sentyabrında Azərbaycan-Ermənistan sərhədində törətdikləri təxribat qısa vaxtda ordumuz tərəfindən susduruldu. 2023-cü ilin 19 sentyabr tarixində isə Rusiyanın Sülhməramlı Qüvvələrinin yerləşdiyi Azərbaycanın əzəli torpaqlarında olan erməni Silahlı Qüvvələrinin törətdiyi terror hadisələrinə cavab olaraq Ali Baş Komandanın rəhbərliyi ilə başlayan lokal xarakterli antiterror əməliyyatı nəticəsində işğalda qalan digər torpaqlarımız da azad edildi. Qısa müddətdə - 24 saatdan da az vaxtda düşmən ağ bayraq qaldıraraq təslim olmağa məcbur edildi. Bu tarixdən üçrəngli bayrağımız Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə də məğrurcasına dalğalanmağa başladı. Ölkəmizin suverenliyi bərpa olundu.

Artıq 33 ildir ki, hər il 26 fevral tarixdə Xocalı faciəsi ürək ağrısı ilə xatırlanır, qan yaddaşımız təzələnir. Son illər isə xalqımız bu faciəni başqa abu-havada qeyd edir. Səbəbi isə torpaqlarımızın azad edilməsi və o ərazilərdə aparılan quruculuq işləridir. Ölkə başçısının rəhbərliyi ilə azad olunmuş torpaqlarda, eləcə də qan donduran faciənin yaşandığı Xocalıda bu gün abadlıq - quruculuq işləri aparılır, prospekt və küçələr, park və xiyabanlar salınır, infrastruktur yenilənir, yeni sənaye və turizm obyektləri istifadəyə verilir, yurd-yuvasından didərgin düşmüş insanlarımız öz doğma torpaqlarına qayıdırlar. Doğma sakinlərini qoynuna alan torpaqlarımızdan biri də Xocalının Ballıca kəndidir. Bir neçə gün öncə Ballıcaya köç edən kənd sakinlərinin sevincinə biz də qoşuluruq. Ömürlük yaşayacaqları torpaqlarda onlara möhkəm can sağlığı, firavan və rahat həyat arzulayırıq.

Bu möhtəşəm qələbəni, sevinci bizə yaşadan ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, onun rəhbərlik etdiyi güclü ordumuz, rəşadətli əsgər və zabitlərimizdir.

Şəhidlərimizin - Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisası döyüş meydanında alınıb.

**Ətayə OSMANOVA,**
**Başçının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri.**
***Fotolar S. Umuyevindir.***